UOT 94 (479.24)

# Avropa muzeylərində orta əsr Azərbaycan silahları

**Səbuhi Əhmədov**
*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Elmi ekspozisiya və sərgilərin təşkili" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru*
***e-mail:*** *chokan28@yahoo.com*

***Açar sözlər:*** *Orta əsr Azərbaycan silahları, Ağqoyunlu silahları, Səfəvi silahları, Türk Palatası, Britaniya Muzeyi, Ərəb Dünyası İnstitutu Muzeyi, "Tülbənd" dəbilqə növü*

Orta əsr Azərbaycan silahları tədqiq edilərkən mənbə kimi dünya muzeylərində maddi- mədəniyyət nümunələri qismində qorunan və nümayiş etdirilən materiallar da nəzərə alınmalıdır. Belə ki, orta əsr ustaları kütləvi tələbatı ödəməyə yönəlmiş istehsalla bərabər, dövlətin hərbi-siyasi rəhbərliyinin sifarişini yerinə yetirmiş, təkcə döyüş xassələri ilə deyil, həm də bədii tərtibatı ilə də seçilən silahlar hazırlamışlar. Belə silahlara daim qulluq edilir, onlar qorunur, nəsildən-nəsilə ötürülürdülər. Tarixi hadisələrin gedişində Azərbaycandan müxtəlif yollarla çıxarılmış bu silahlar, hal-hazırda dünyanın aparıcı muzeylərində və fərdi kolleksiyalarda mühafizə olunurlar.

Zəngin silah kolleksiyalarına malik olan bir sıra Avropa muzeylərində də orta əsr Azərbaycan silahları mühafizə olunur.

**Almaniya muzeylərində orta əsr Azərbaycan silahları.** Almaniya ərazisində olan muzeylər sırasında türk xalqlarının ən zəngin silah kolleksiyası Drezden muzeyində qorunur. Muzeyin müsəlman silahları kolleksiyasının toplanmasına XVIII əsrdə kurfürst II Avqust başlamışdır (10, s.314). Drezden Silah Palatasının (Rüstkammer) tərkib hissəsi olan Türk Palatasında (Türckische Cammer) qorunan 600-dən artıq eksponat sırasında Ağqoyunlu və Səfəvi dövlətlərinə aid, Azərbaycan ustaları tərəfindən düzəldilmiş silah nümunələri mövcuddur.

Drezden Türk Palatasının unikal eksponatlarından biri XV əsr Ağqoyunlu döyüşçüsünə aid yaraq nümunəsidir (Türckische Cammer, №Y19a). Bu "Çövşən" tipli yarağın əsasını polad halqalardan toxunmuş köynək təşkil edir. Yarağın qarın nahiyəsində 8 ədəd (sağ və sol tərəfdə dörd-dörd) polad lövhə birləşdirilib, gümüşü və qızılı yazılarla bəzədilib. Yarağın sağ və sol tərəflərini bağlayan 4 ədəd ipin yalnız pərçim yerləri dövrümüzə qədər çatıb. Yarağın bel tərəfində yaxalıqdan başlayıb kəmərə qədər üç cərgədə kiçik lövhələr bərkidilib. Cərgələrin hər birində 15 lövhə mövcuddur. Lövhələr üzərində gümüşü yazı və qızılı haşiyə var. Hər lövhə üzərində ümumi yazının 1-2 hərfi yerləşib. Yarağın sağ və sol tərəflərində kəmərdən qoltuğa qədər şaquli zolaqda 4 lövhə bərkidilib. Onun dirsəyədək qolları, dizədək ətəyi, boğazı və boynu qoruyan yaxalığı vardır (3, № 3, p. 43).

1.

Drezden Türk Palatasında nümayiş olunan at yarağı XV-XVI əsrlərə aid edilmişdir. Alman mütəxəssislərinin fikrincə, bu yaraq Ağqoyunlu və Səfəvi dövlətlərində istifadə edilmişdir (Türckische Cammer, № Y367) (3, № 2, p. 42). Yaraq bir-birinə bağlanmış polad materialdan baş, boyun, sinə, yan, bel və arxa hissələrdən ibarətdir. Başı qoruyan hissə polad alınlıq və ona asılmış lövhəli-halqalı yanaq hissələrdən ibarətdir. Digər hissələr lövhəli-halqalıdır: polad uzunsov lövhələr metal halqalar vasitəsilə şaquli cərgələrlə düzülüb və vahid müdafiə təşkil edirlər. Sinədə və arxa hissədə lövhəli-halqalı özül üzərinə metal disklər birləşdirilib.

Drezden Türk Palatasında Səfəvi dövlətinə aid hücum silahları da qorunur. Qeyd etmək lazımdır ki, bu silahlar XVI əsr Səfəvi döyüşçülərinin silahları kimi qiymətləndirilsə də, "İran" eksponatı kimi təqdim olunur.

XVI əsr Səfəvi döyüşçülərinin yayının (Türckische Cammer, № Y214) qolları ağacdan, mərkəzi hissəsi buynuzdan və vətərlərdən hazırlanıb, əlvan rənglənib (3, № 14, p. 50). Kiriş burulmuş vətərlərdəndir. XVI əsr Səfəvi döyüşçülərinin döyüş baltasının başlığı (Türckische Cammer, № Y250) uzunsov kəsici-doğrayıcı hissəyə, enli və güclü arxa hissəyə malikdir (3, № 63, p. 80). Balta üzərində zəif qızılı naxışlar nəzərə çarpır. XVI əsr Səfəvi qılıncının tiyəsi (Türk Palatası, № Y70) bir qədər əyilmiş formadadır; uzunluğu 88,1 sm, çəkisi 583 qramdır. Tiyə üzərində kiçik dekorativ kartuşda yazı var: "Şah-i Şəmsin qulluqçusu Şükrullah" və "Şükrullah, Şah-i Şəmsin qulluqçusu" (3, № 140, p. 150).

Drezden Tarix Muzeyində qorunan XV əsrə aid Ağqoyunlu xəncəri unikallığı ilə seçilir. Xəncər hamar sümük dəstəkdən və zəif əyilmiş polad tiyədən ibarətdir. Tiyənin bütün səthi qızılı nəbati naxışlarla bəzədilib (6, s.253). Səfəvi dövlətinə aid başqa bir eksponat qalxandır. O, budaqlardan toxunub, mərkəzində polad umbon bərkidilib (6, s. 243).

**Böyük Britaniya muzeylərində orta əsr Azərbaycan silahları.** Böyük Britaniyanın tarixi və arxeoloji muzeylərinin kolleksiyalarının əksəriyyətini Şərq ölkələrindən gətirilən eksponatlar təşkil edir. Azərbaycan silahları Britaniya Muzeyində, "Viktoriya və Albert" Muzeyində, Kral Arsenalında saxlanılır. Bununla belə, yal-

nız Britaniya Muzeyindəki silahların orta əsr Azərbaycan dövlətlərinə məxsusluğu təsdiq edilmişdir. Digər muzeylərdəki materiallar isə araşdırılmaq üzrədir.

Dünyanın ən böyük muzeylərindən biri – Londonda yerləşən Britaniya Muzeyinin (Brtisih Museum) islam incəsənəti kolleksiyasına 40 mindən artıq eksponat daxildir. Onların arasında Azərbaycanda hazırlanmış tarixi əşyalar da vardır (1, s.74-80). Araşdırmalar nəticəsində burada saxlanılan orta əsr Azərbaycan silahları müəyyən olunmuşdur. Aşağıda təqdim edilən silahlar muzeyin daimi ekspozisiyasının "İslam dünyası" qalereyasında (qalereya № 34) nümayiş etdirlir.

XV əsrin sonlarına aid edilən "Tülbənd" növlü bir polad dəbilqənin (Britaniya Muzeyi, № OA 94 4-13.6) Ağqoyunlu dövlətinin ərazisində hazırlandığı göstərilmişdir. Hündür ağız çevrəsinin ön tərəfində gözlər üçün iki yarım ellipsvari kəsik qoyulmuşdur. Həm ağız çevrəsi, həm də göz kəsiklərinin kənarları metal haşiyə ilə bərkidilib. Göz kəsiklərinin arasında burun sipəri üçün bərkidici lövhə vardır. Ağız çevrəsinə dəlikli çıxıntılar bərkidilib. Bu çıxıntılardan keçirilən metal naqildən halqalı metal tor asılırdı (təqdim olunan nüsxədə tor yoxdur). Ağız çevrəsi üzərində, demək olar ki, tam yeyilmiş gümüşü yazıların və ornamentlərin izləri vardır. Gövdə hissəsi ağız çevrəsinə nisbətən genişdir və tədricən yalma hissəsinə keçir. Gövdə hissəsində şaquli dar yivlər qoyulub. Gövdənin ön tərəfində metal qarmaq pərçimlənib. Qarmaq dəbilqənin qabağına taxılmış döyüş maskasının qaldırılmış vəziyyətdə saxlanılması üçün nəzərdə tutulurdu. Gövdənin sağ və sol tərəflərində qabarıq pərçim görünür. Ehtimal ki, bu pərçimlərdən qulaqlıqlar (qulaqları qoruyan metal lövhələr) asılırdı. Dəbilqənin yalma hissəsində solmuş qızılı naxışların izləri var. Yalma hissəsi getdikcə daralır və yuxarıya doğru qalxaraq təpəliyə keçir. Təpəlik iki hissədən ibarətdir. Alt hissə "paxlava" motivi ilə bəzədilmiş lövhədən ibarətdir; "paxlavalar" dörd tərəfə baxır, hər "paxlava"nın mərkəzində dəlik var. Təpəliyin üst hissəsi tilli ucluqla tamamlanır.

Britaniya Muzeyində qorunan başqa "Tülbənd" növlü polad dəbilqənin (BM, № OA 6063) XV əsrin sonlarında "şimal-qərbi İran"da (başqa sözlə desək, Cənubi Azərbaycanda) hazırlanması göstərilib. Hündür ağız çevrəsinin ön tərəfində gözlər üçün iki yarımellipsvari kəsik qoyulmuşdur. Həm ağız çevrəsi, həm də göz kəsiklərinin kənarları metal haşiyə ilə gücləndirilib, lakin başqa bu tip dəbilqələrdən fərqli olaraq, haşiyə çox enlidir və üzəri dəliklərlə gül formasında naxışla-

2.

3.

4.

1. "Çövşən" yarağı. XV əsr. Ağqoyunlu dövlati. Drezden Muzeyi Türk Palatası

2. Döyüş atının yarağı. XV - XVI əsrlər. Ağqoyunlu və ya Səfəvi dövlati. Drezden Muzeyi Türk Palatası

3-4. "Tülbənd" dəbilqələri. XV-XVI əsrlər. Britaniya Muzeyi.

nıb. Göz kəsiklərinin arasında burun sipəri üçün dəliklər qoyulub. Ağız çevrəsini əhatələyən haşiyə üzərində də naxışlar mövcuddur. Ağız çevrəsinə dəlikli çıxıntılar bərkidilib. Bu çıxıntılardan keçirilən metal naqildən halqalı metal tor asılıb. Tor 12 üfüqi cərgədə düzülmüş (birbirlərinə keçirilmiş) polad halqalardan ibarətdir. Tor boynu və boğazın yan tərəflərini zərbələrdən qorumaq üçün kifayət edən uzunluğa malikdir. Gövdə hissəsində diaqonal enli yivvari zolaqlar qoyulub. Gövdə hissəsi ağız çevrəsinə nisbətən genişlənir və tədricən yalma hissəsinə keçir. Gövdənin sağ və sol tərəflərində pərçim üçün dəliklər var (pərçimlər qalmayıb). Ağız çevrəsi, gövdə hissəsi və yalma hissəsinin aşağı zolağında, demək olar ki, tam yeyilmiş gümüşü yazıların və ornamentlərin izləri vardır. Yalma hissəsi getdikcə daralır və yuxarıya doğru qalxaraq təpəliyə keçir, lakin təpəliyin özü dövrümüzə qədər qalmamışdır. Dəbilqənin uzunluğu 29 sm-dir. Muzeyin mütəxəssisləri tərəfindən dəbilqə üzərində vahid mətn deyil, ayrı-ayrı ifadələr oxunmuşdur: "Əl-alim əl-adil", "əl-Müiz", "əl-məvlanə", "əl-sultan əl-azam", "xaqan", "əl-müəzzəm məlik əl-umam".

Britaniya Muzeyində 1625/26-cı ildə Səfəvi dövlətində hazırlanan "Külah-xud" növlü dəbilqə qorunur (BM, № 1878, 1230.772). Con Henderson tərəfindən muzeyə hədiyyə olunan dəbilqənin əsas hissəsinin hündürlüyü 25,4 sm, halqalı torla birlikdə hündürlüyü isə 42 sm-dir.

1.

Şarkonusvari dəbilqənin təpəsində ucluğu, alnında burunluğu, ön tərəfində lələklər üçün iki borusu var. Dəbilqənin aşağı kənarına halqalı tor asılıb. Başın arxa və yan tərəfini uzun, alnını isə qısa halqalı tor qoruyur. Muzeyin mütəxəssisləri tərəfindən dəbilqə üzərində aşağıdakı yazılar oxunub: "Bu qızıl dəbilqə 1035-ci ildə tamamlanıb. Onu alnına geyinən baş salamat qalsın". "Dünyanın fatehi, dünyanın dayağı Şah Abbasın hakimiyyətində bu qızıl və daş-qaşlı dəbilqə başımda. Onun dəbilqəsi parlayan aya bənzəyir, mən onu necə təsvir edim". "Dara kimi böyük şahlar şahının, əliaçıq, şöhrətli və tanınmış, dünya fatehi, təsir qüvvəsi Çindən Şama qədər olan padşah Şah Abbasın dövründə bu qızıl dəbilqə tamamlandı. Belə dəbilqə parlaq döyüşçüyə layiqdir. Alnında bu dəbilqəni daşıyan baş xoşbəxt olsun...".

Britaniya Muzeyində qorunan lövhəli-halqalı ayaqlıq XV əsrin sonlarına aid edilmişdir (BM, № OA 93 9-81). Ekspozisiyada nümayiş olunan ayaqlığın Ağqoyunlu dövlətində hazırlandığı göstərilir. Ayaqlıq üç polad lövhə və onları birləşdirən metal halqalardan ibarətdir. Mərkəzi lövhə ayağın formasını təkrarlayaraq aşağı hissədə, topuqda qabarıqdır. Ayaqda bağlamaq üçün kiçik lövhələrdə pərçimlər üçün dəliklər qoyulub. Lövhələrin səthi gümüşü nəbati ornamentlərlə və ərəb əlifbasının hərflərindən ibarət böyükölçülü yazılarla bəzədilib.

Muzeyin kolleksiyasında XV əsrin sonlarına - Ağqoyunlu dövlətinə aid dizlik-budluq qorunur (BM, № 1881, 0802.147). Ənənəvi quruluşa malik olan bu əlavə müdafiə elementi dizlik lövhədən, budu qoruyan metal lövhələrdən və asılma halqalı tordan ibarətdir.

Britaniya Muzeyində XVI əsr Azərbaycan Səfəvilər dövlətlərinə aid hücum silahları da mühafizə olunur. Muzeydə 1550-1600-cü illərdə Səfəvilər dövlətində hazırlanan döyüş baltasının başlıq hissəsi qorunur (BM, № 1949, 0217.3). Başlıq hissə poladdan düzəldilib, zoomorf və nəbati ornamentlərlə bəzədilib. Balta muzey tərəfindən E.Beqyandan satın alınıb. Uzunluğu 16,3 sm olan başlığın üst tərəfi düzdür, alt tərəfi aypara formasındadır. Başlığın arxa tərəfi ilə zərbə vurmaq mümkün olmuşdur.

Görkəmli misirli tədqiqatçı A.Zəki qeyd edir ki, Britaniya Muzeyində "Külah xud" növlü dəbilqələrin birinin üzərində Şah Abbasın adı vardır (9, p.28).

Britaniya Muzeyində qorunan silahlar sırasında XII-XIII əsrlərə aid xəncər və onun qını unikallığı ilə seçilir (BM, № 1946, 0713.5.a). Xəncərin düz dəstəyi, zəif əyilmiş polad tiyəsi

1. "Cövşən" yarağı. XV əsr. Ağqoyunlu dövləti. Kral Arsenalı. Lids şəhəri
2. "Külah-xud" dəbilqəsi. XVI əsr. Səfəvi dövləti. Britaniya Muzeyi
3. "Tülbənd" dəbilqəsi. XV əsr. Ağqoyunlu dövləti. Kral Arsenalı. Lids şəhəri
4. Ayaqlıq. XV-XVI əsrlər. Ağqoyunlu və ya Səfəvi dövləti. Britaniya Muzeyi

var. Tiyənin ortasından güclən-dirici zolaq keçir.

Britaniyada Şərq silahlarının saxlandığı digər muzey Lids şəhərindəki Kral Arsenalıdır (Royal Armouries Museum, Leeds). 70 mindən çox eksponata malik olan bu muzeydə "Hərbi", "Cəngavər yarışları", "Müdafiə", "Ov", "Şərq" kimi beş qalereya mövcuddur. "Şərq" qalereyasında müxtəlif Şərq ölkələrinin silahları qorunur. Lakin qeyd etmək lazımdır ki, burada saxlanılan müsəlman Şərqinə aid silahlar tam tədqiq olunmamışdır. Bu səbəbdən "müsəlman silahları" kimi göstərilən silahlar arasında Azərbaycan dövlətlərinə aid silahları müəyyən etmək çətindir. Lids muzeyində qorunan, İran ərazisində tapıldığı göstərilən (dəqiq bölgə yazılmayıb) XII əsrə aid tunc şeşpər başlığının çəkisi 800 qram, uzunluğu 11,5 sm-dir (8, p.75). Muzeydə qorunan "Behtər" növlü Səfəvi yarağının çəkisi 8,1 kq-dır (8, p.170). Muzeydə qorunan Səfəvi qılıncının çəkisi 0,6 kq, uzunluğu 81 sm-dir (8, p.186).

Dünyanın ən böyük tətbiqi-sənət muzeylərindən olan Londondakı "Viktoriya və Albert Muzeyi"ndə Şərq silahlarının böyük kolleksiyası mövcuddur. Onlar sırasında XV-XVI əsr "Tülbənd" dəbilqələri də var (məsələn, VAM, №№399-1888) (4, pp.274-276). Lakin bu sahədə elmi araşdırma aparılmadığından, muzeydəki bir sıra Şərq silahlarının dəqiq mənşəyi müəyyən olunmayıb. Bu silahlar "İran silahları", "Türkiyə silahları" adı ilə təqdim olunur.

İngiltərədə yaşayan tanınmış sənətşünas və kolleksiyaçı Naser D.Xəlili (Nasser D.Khalili) ümumilikdə 25 min sənət əsərindən ibarət kolleksiya toplamışdır. "Khalili Family Trust" çərçivəsində 5 müstəqil kolleksiya, o cümlədən "İslam dünyası incəsənəti" kolleksiyası birləşdirilmişdir. Vahid binası olmasa da, kolleksiya dəfələrlə müxtəlif ölkələrdə nümayiş olunmuş, eksponatların böyük qisminin fotoşəkilləri kataloqlar şəklində dərc edilmişdir. Kolleksiyada silahlar, o cümlədən orta əsr Azərbaycan dövlətlərinə aid silahlar qorunur.

Kolleksiyada qorunan döyüş maskası unikal tərtibata malikdir (N.D.X. kolleksiyası, MTW 1390) (2, cat.25, p. 66–67; 5, cat.221, pp.186–187). Döyüş maskası yuxarı kənarı boyunca dəbilqəyə 6 pərçimlə pərçimlənib. Maska insan üzü şəkilndə məharətlə düzəldilmişdir. Maska uzunsov formalıdır, enli alın, iti, uzunsov burun, enli çatma qaşlar, badamvari göz kəsikləri, qabaran yanaqlar, üst çənədən qulaqlara doğru uzanan nazik bığlara malikdir. Maskanın səthi naxışlarla, ornamentlərlə bəzədilib. Döyüşçünün nəfəs alması üçün maskanın burnunun altında və ağızda kiçik dəliklər qoyulub. Gözlər üçün kəsiklər dəyirmidir. Alında aşağıya baxan aypara formalı dekorativ döymə naxış vardır. Qaşlar enlidir, dilik-dilik naxışlarla bəzədilib. Burun düz formalıdır, yanaqlarda qızılı nəbati ornament var. Ağız düz xətt formasındadır. Bığlar düz formalıdır, ucları qulaqlara doğru qalxır. Dəbilqənin yuxarı hissəsində üç dördbucaq formalı dəlik var. Ölçüsü 20x16,5 sm olan maska polad materialındandır, asılma detalları misdəndir. Naser

D.Xəlilinin silah kolleksiyasına həsr olunmuş kataloqun müəllifi, tanınmış silahşünas alim D.Aleksanderin fikrincə, maska XV əsrin sonlarında Ağqoyunlu döyüşüçülərinin sifarişi əsasında Dərbənddə düzəldilib. Maskanın sonralar Osmanlı döyüşçüləri tərəfindən də istifadə olunduğu ehtimal edilir.

Kolleksiyada qorunan dəbilqə "Tülbənd" dəbilqə növünə aiddir (N.D.X. kolleksiyası, MTW 773) (2, cat.27, pp.68, 70). Hündürlüyü 31,4 sm olan polad dəbilqə klassik "Tülbənd" quruluşuna malikdir. Dəbilqənin hündür ağız çevrəsi, geniş gövdə hissəsi, yüksələn yalması, ikihissəli təpəliyi vardır. Ağız çevrəsi dəbilqənin başda dərin oturması məqsədilə enli hazırlanırdı. Ağız çevrəsinin ön tərəfində gözlər üçün iki yarımellipsvari kəsik qoyulmuşdur. Həm ağız çevrəsi, həm də göz kəsiklərinin kənarları metal haşiyə ilə bərkidilib. Ağız çevrəsinə dəlikli çıxıntılar bərkidilirdi. Bu çıxıntılardan keçirilən metal naqildən halqalı metal tor asılırdı. Tor boyun və boğazı qoruyurdu. Burun sipəri, halqalı tor dövrümüzə qədər qalmayıb. Ağız çevrəsində olan yazılar kufi xətlə yazılıb. Yazının əksər hissəsi pozulub.

Kolleksiyada qorunan lövhəli-halqalı yaraq "Çövşən" növünə aiddir (N.D.X. kolleksiyası, MTW 1158) (2, cat.26, pp.68–69). XV əsrin sonu və ya XVI əsrin əvvəllərinə aid edilən "Çövşən"in uzunluğu 86 sm-dir. Yarağın ön tərəfində 8 dördbucaq polad lövhə, sağ və sol hər birində 4 kiçik polad lövhə halqalı özülə birləşdirilib. Lövhələr üzərində gümüşü naxışlar və yazılar var (demək olar ki, tam silinib, ayrı-ayrı fraqmentlər şəklindədir). "Çövşən" adətən ağır silahlanmış süvarilər və qoşunun komanda heyətinin müdafiə silahı kimi istifadə olunurdu.

Kolleksiyada qorunan XV əsr at başlığının üzərində "Hüseyn b. Əlixan Cahangir" adı oxunmuşdur (N.D.X. kolleksiyası, MTW 928). D.Aleksanderin fikrincə, Hüseyn b. Əlixan Cahangir Ağqoyunlu hökmdarı Uzun Həsənin qardaşıdır (1497-ci ildə Təbrizdə həlak olub), at başlığı isə Ağqoyunlu silah ənənələri əsasında hazırlanıb (2, cat.40, pp.86–89).

1.

**Fransa muzeylərində orta əsr Azərbaycan silahları.** Fransanın tarixi və arxeoloji muzeylərinin kolleksiyalarında Şərqdən gətirilən eksponatlar əhəmiyyətli yer tutur. Azərbaycan silahları Luvr Muzeyi (Louvre Museum), Ordu Muzeyi (Musee de l'Armee), Ərəb Dünyası İnstitutu Muzeyinin kolleksiyasında saxlanılır. Onların sırasında, yalnız Ərəb Dünyasının İnstitutu Muzeyinin kolleksiyasındakı islam ölkələrinin silahları ətraflı öyrənilmişdir; bu isə kolleksiyada mövcud olan Azərbaycan silahlarını fərqləndirməyə imkan verir.

Ərəb Dünyası İnstitutu Muzeyinin (Musée de l'Institut du monde arabe, Paris) "Furusiya" (cəngavərlik) kolleksiyasında yalnız ərəb ölkələrinin deyil, türk xalqlarının da silah nümunələri nümayiş etdirilir. Kolleksiyanın VIII-XVII əsrlərə aid eksponatları sırasında Azərbaycan döyüşçülərinin də silahları vardır. Kolleksiyadakı üç ədəd dəbilqənin (onlardan birinin üzərində "Xəlilullah" adı yazılıb), iki ədəd dizlik-budluq, bir ədəd ayaqlıq, bir ədəd qolçaq, iki ədəd döyüş atının başlığının XV-XVI əsr Azərbaycan dövlətləri ilə bağlı olması danılmazdır.


2.

Muzeyin "Furusiya" kolleksiyasında qorunan bir dəbilqənin Şirvanşahlar dövlətində hazırlandığı müəyyən olunmuşdur (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-832). Dəbilqənin Azərbaycan ustaları tərəfindən XV əsrin ortalarında hazırlandığı məlum olmuş, üzərindəki "Sultan, Sultanın oğlu əmir Xəlilullah..." adı oxunmuşdur (7, №310, p.323). Bu, onun Şirvanşahlar dövlətinin hökmdarı I Xəlilullaha (1418-1463) məxsus olmasını göstərir (dəbilqə üzərindəki "Xəlil" adına istinad edən bəzi tədqiqatçıların fərziyyələrinə görə, dəbilqə Ağ-

qoyunlu şahzadəsi Xəlil ibn Həsənə (1441-1478) (Uzun Həsənin oğlu) də məxsus ola bilərdi). Yazı bu cür oxunur: "Sultan, Sultan oğlu, sultan əmir Xəlilullah... Hökmdarımız şöhrətli olsun, böyük sultana, möhtəşəm xaqana şöhrət, çiçəklənmə, var-dövlət olsun... Şöhrət itaətdədir. Var-dövlət təvazökarlıqdadır". Dəbilqənin ağız çevrəsi və gözlər üçün qoyulan kəsikləri metal haşiyə ilə bərkidilib. Ağız çevrəsi boyunca dəlikli çıxıntıları vardır, lakin onlardan asılan halqalı tor qalmayıb. Ağız çevrəsinin enli hissəsində iri hərflərlə yazı vardır, hərflərin bəziləri silinmişdir. Burun sipəri dövrümüzə qədər gəlib çatmamışdır, yalnız birləşdirici dəliklər qalmışdır. Dəliklərdən yanda qarmaq pərçimlənib. Gövdə enli diaqonal zolaqlarla bölünüb; güllü-çiçəkli zolaqları yazılı zolaqlar əvəz edir. Yalma iki üfüqi zolağa bölünüb: yuxarı zolaqda nəbati ornament, aşağı zolaqda yazılar mövcuddur. Təpəlik iki hissədən ibarətdir. Alt hissəni "paxlava" motivi ilə bəzədilmiş lövhə təşkil edir; "paxlava"lar dörd istiqamətə baxır; hər "paxlava"nın mərkəzində dəlik qoyulub. Təpəliyin üst hissəsi tilli ucluqla tamamlanır.

"Tülbənd" növlü dəbilqənin digər nümunəsinin (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-804) Azərbaycan ustaları tərəfindən hazırlanması şübhə doğurmur; tədqiqatçılar onun Cənubi və ya Şimali Azərbaycanda (Şirvanşahlar və ya Ağqoyunlular dövlətləri ərazisində) düzəldilməsini qeyd edirlər (7, №311, s. 324). Dəbilqənin ağız çevrəsi və gözlər üçün qoyulan kəsikləri metal haşiyə ilə bərkidilib. Ağız çevrəsi boyunca dəlikli çıxıntıları var (onlardan asılan halqalı tor qalmayıb); ağız çevrəsinin enli hissəsində iri hərflərdən ibarət yazı diqqəti cəlb edir. Burun sipərliyinin yalnız birləşdirici lövhəsi dövrümüzə qədər qalıb. Onun yanında qarmaq pərçimlənib. Gövdə dar şaquli zolaqlarla bölünüb, onların içi hamardır. Yalma iki üfüqi qeyri-bərabər zolağa bölünüb: dar yuxarı zolaqda nəbati ornament, aşağı enli zolaqda yazılar mövcuddur. Təpəlik "paxlavalı" lövhə və tilli ucluq hissələrdən ibarətdir.

Muzeyin "Furusiya" kolleksiyasında qorunan XV əsr Qaraqoyunlu və ya Ağqoyunlu dövlətlərinin döyüşçüsünə məxsus olmuş dizlik-budluq nadir eksponatlardandır (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-150). Dizlik-budluq dizi, həmçinin dizdən kəmərə qədər olan hissəni qorumaq üçün nəzərdə tutulmuşdur. Uzunluğu 60 sm olan dizlik-budluq üç hissədən ibarətdir. Mərkəzi hissəni ornament və yazı ilə bəzədilmiş, ellipsvari qabarıq polad dizlik təşkil edir. Budluq hissə lövhəli-halqalıdır. Burada uzunsov formalı polad lövhələr 9 cərgədə düzülərək halqalarla birləşdirilib. Budluğun yan tərəflərinə dəri qayışlar (2 ədəd) pərçimlənib. Budluğun yuxarı hissəsini kəmərə bağlamaq üçün ona bir neçə metal halqa bərkidilmişdir. Dizliyin aşağı və yan hissələrinə, budluğun aşağı hissəsinə bərkidilən halqalı tor dizdən aşağı sallanırdı. Dizlik gümüş və qızıl naxışlarla, yazılarla bəzədilib (7, № 291, p.303).



3.

"Furusiya" kolleksiyasında ikinci belə dizlik-budluq da qorunur. O, yuxarıda təsvir olunan nümunədən yalnız uzunluğu (55,5 sm) və naxışlarının, yazılarının gümüşü olması ilə fərqlənir (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-742) (7, №292, p.304). Kataloq müəlliflərinin fikrincə, belə dizlik-budluq XIV-XVI əsrlərdə İranda, Anadoluda və Şirvanda düzəldilirdi.

XV-XVI əsr Azərbaycan dövlətlərindən birinin (Ağqoyunlu və ya Səfəvilər) döyüşçüsünə məxsus ayaqlıq lövhəli-halqalı növə aiddir (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-274). Ayaqlığın əsas hissəsini poladdan düzəldilmiş üç lövhə təşkil edir. Lövhələr dizdən pəncəyə qədər olan hissəni qoruyur. Mərkəzi lövhənin uzun olması, aşağı tərəfinin topuqda qabarıqlığına görə onun yandan bağlanması ehtimalını irəli sürməyə imkan verir. Lövhələr polad halqalarla birləşdirilib. Yan lövhələrdən biri uzun, digəri isə qısadır. Ümumi uzunluğu 39 sm olan ayaqlıq sol ayaq üçün nəzərdə tutulub (7, №294, p.306). Kollek-

1. "Tülbənd" dəbilqəsi. XV əsr. Ağqoyunlu dövləti. Ordu Muzeyi. Paris şəhəri

2. "Tülbənd" dəbilqəsi. XV əsr. Ağqoyunlu dövləti. Ərəb Dünyası İnstitutu Muzeyi. Paris şəhəri

3. "Kalkan" növünə aid qalxan. XVI əsr. Səfəvi dövləti. Kral Arsenalı. Lids şəhəri

siya kataloqunda qeyd olunur ki, oxşar ayaqlıq Los-Angeles Dairə İncəsənət Muzeyində qorunur (7, p.305).

"Furusiya" kolleksiyasında qorunan bir qolçağın XV-XVI və ya XVII əsrin əvvəllərində Ağqoyunlu, Şirvanşahlar və ya Səfəvilər dövlətlərindən birində istifadə olunması, Cənubi Azərbaycanda və ya Qafqazda hazırlanması qeyd olunur (Ərəb Dünyası İnstitutu Muzeyi, №R-170). Qolçaq poladdan hazırlanıb, gümüş naxışlarla bəzədilib. Uzunluğu 28,5 sm olan qolçaq üç polad lövhədən (bir uzun çöl, iki kiçik iç tərəfdə) və onları birləşdirən halqalardan ibarətdir. Tədqiqatçıların fikrincə, qolçaq üzərindəki qızılı hissələr XVIII əsrdə Qafqazda (Şimali Azərbaycanda) düzəldilib (7, №296, p.308).

"Furusiya" kolleksiyasında Azərbaycan dövlətlərinə aid iki at başlığı saxlanır. At başlığı nümunələrindən birinin üzərində Qaraqoyunlu hökmdarı Qara Yusifin (1410-1417) adı var (Ərəb Dünyası İnstitutu Muzeyi, № R-157) (7, №326 p.340). Atın alnı şəklində olan polad lövhədə gözlər üçün kəsiklər qoyulub. Lövhənin kənarları boyunca olan pərçimlər başlığa iç tərəfdən parça astarın birləşdirilməsini ehtimal etməyə imkan verir. Bu tip at alın zirehləri Ağqoyunlu və Osmanlı dövlətlərində də istifadə edilmişdir.

Kolleksiyaya daxil olan və XVI əsrdə Səfəvilər dövlətində hazırlanan at başlığı tam formadadır. Belə ki, onun alın polad lövhəsinə yanaq hissələri əlavə olunub (Ərəb Dünyasının İnstitutu Muzeyi, № R-159) (7, №327, p.341). Uzunluğu 63 sm olan alın lövhəsi XV əsrdə istifadə olunan lövhədən fərqlənmir. Lövhəli-halqalı yanaq hissələri halqalarla birləşdirilən üst və alt bölmələrdən ibarətdir. Bölmələr, öz növbəsində, uzunsov lövhələrdən tərtib olunublar.

1.

Kolleksiyada XV-XVII əsr Azərbaycan dövlətləri ilə bağlı bir neçə hücum silahı da mövcuddur. Buradakı XVI-XVII əsrlərə - Səfəvilər dövlətinə aid yay polad materialdandır ("Furusiya", № 359, № R-995) (7, p.384). Uzunluğu 94 sm olan yayın yuxarı və aşağı kənarları durna başını xatırladır. Əksər hallarda qollar sümük və ağac lövhələrdən düzəldilir, vətərlərlə və iplərlə bağlanırdı. Polad yayın qollarında əvvəlki dövr ağac yayın qollarındakı lövhə və xətlər təsvir olunub. Kirişi bağlamaq üçün qolların qurtaracağında dəlikli çıxıntı qoyulmuşdur.

2.

"Furusiya"da XVII əsrə aid üç ədəd oxçu üzüyü ("Furusiya", № 374-376, gümüş, uzunluğu 3,4-3,8 sm, R-914, R-916, R-917) (7, p.395) saxlanılır. Barmağa taxılan hissəsi dar olan üzüyün kirişi dar yan hissəsi quş dimdiyi kimi qabağa çıxırdı.

Kolleksiyaya XV-XVI əsrlər Azərbaycan dövlətlərinin döyüşçülərinin xəncərinin bir növü daxildir ("Furusiya", №150, uzunluğu 36 sm, inv. R-269) (7, s.159). Xəncərin azacıq əyilmiş polad tiyəsi enlidir, mərkəzində qabarıq zolaqla gücləndirilib. Dəstək sümükdəndir, dördbucaq xaçlıq və dördbucaq başlığa malikdir. Tiyə XVIII əsrdə qızılı nəbati ornamentlərlə bəzədilib.

Furusiya kolleksiyasında qorunan bir qılınc ilk baxışda Osmanlı qılıncını xatırlatsa da, onun tiyəsi Azərbaycan işidir ("Furusiya", № 26, R- 224) (7, s.62). Tiyə XVI əsrin ikinci yarısında düzəldilsə də, onun üzəri qızılı naxışlarla və yazılarla XVIII-XIX əsrin əvvəllərində bəzədilmişdir. Qılıncın dəstək hissəsi düz xaçlıq və yumru, yastı başlığa malikdir; bu elementlər Osmanlı qılınclarına xas olmuşdur. Lakin muzey əməkdaşlarının tədqiqatları nəticəsində müəyyən edilmişdir ki, qılıncın tiyəsi XVI əsrin II yarısında Səfəvi qoşunlarında istifadə edilən qılıncındır. Zəif əyilmiş tiyə ucluğa yaxın hissədə yılmanla tamamlanır.

Tədqiqatlar sübut edir ki, XV-XVII əsrlərdə hazırlanmış Azərbaycan silahları onları digər Şərq ölkələrində düzəldilən silahlardan fərqləndirməyə imkan verən özünəməxsus xüsusiyyətlərə malik olmuşlar.

1. Ayaqlıq. XV əsr. Ağqoyunlu dövləti. Ərəb Dünyasının İnstitutu Muzeyi. Paris şəhəri

2. Döyüş atının başlığı. XV əsr. Qaraqoyunlu dövləti. Ərəb Dünyasının İnstitutu Muzeyi. Paris şəhəri

## Mənbələr:


1. Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı: 1980
2. Alexander D.G. The Arts of War: Arms and Armour of the 7th to 19th Centuries (The Nasser D. Khalili Collection of Islamic Art,). Vol. XXI. London: 1992. cat.25
3. Holger S. Die Türckische Cammer: Sammlung orientalischer Kunst in der kurfürstlich-sächsischen Rüstkammer Dresden. Dresden: 2010, № 3, s. 43
4. North A. R. Islamic arms and armour // Connoiseur, 191, № 766 (april 1976), pp.274-279
5. Rogers J.M. The Arts of Islam. Masterpieces from the Khalili Collection, London: 2010, cat.221, pp.186–187
6. Schöbel J. Prunkwaffen (Waffen und Rüstungen aus dem Historiscken museum Dresden). Berlin: Militärverlag der DDR, 1983, s.253
7. The Art of the Muslim Knight. The Furusiyya Art Foundation collection. Concept and direction by Bashir Mohammed. Milano, 2008. №310, s.323
8. Weapon. A visual history of arms and armours. London, Dorlind Kindersley Limiled, 2006
9. Zaky A.R. Introduction to the study of Islamic arms and armour // Gladius, 1961, v. I, pp. 17–29
10. Винклер П. фон. Оружие. Руководство к истории, описанию и изображению ручного оружие с древнейших времён до начала XIX века. М: Софт-Мастер, 1992, 329 с.



***Sabuhi Ahmadov***
*PhD in History*


### *Medieval weapons of Azerbaijan in the museums of Europe*


***Key words:*** *Medieval Azerbaijani weapon, weapon of Ak-Koyunlu, Safavid weapons, Turkish Chamber, British Museum, Museum of Institute of the Arab world, turband type of a helmet*



### *Summary*

Great combat and decorative qualities characterized the medieval weaponry of Azerbaijan. It is no coincidence that such weaponry is now held and demonstrated in various museums of the world. Azerbaijani weapons can be found in the weapon collections of the largest museums in Europe.

In the article the author reviews some samples of the medieval weaponry of Azerbaijan that are held in the museums and private collections of Great Britain, Germany, and France. Materials have been collected on the basis of scientific literature, museum catalogs, and also as a result of scientific business trips of the author. The Azerbaijani weaponry is mainly presented at the exhibits that feature samples from 15th to 17th centuries. The exhibits represent samples for defense (helmet, armor, shield, protection of legs, horse armor), and attacks (spear, bow and arrows, axe, mace, saber, dagger).



***Сабухи Ахмедов***
*доктор философии по истории*


### *Средневековое оружие Азербайджана в музеях Европы*


***Ключевые слова:*** *Средневековое азербайджанское оружие, оружие Ак-Коюнлу, оружие Сефевидов, Турецкая Палата, Британский Музей, Музей Института Арабского мира, тип шлема "Тюрбанд"*



### *Резюме*

Средневековое оружие Азербайджана отличалось высокими боевыми и декоративными качествами. Неслучайно такое оружие ныне хранится и демонстрируется в различных музеях мира. Азербайджанское оружие можно встретить и в коллекциях крупнейших музеев Европы.

В данной статье автор рассматривает образцы средневекового оружия Азербайджана, хранящиеся в музеях и частных коллекциях Великобритании, Германии и Франции. Материалы были собраны на основе научной литературы, каталогов музеев, а также в результате научных командировок автора. Азербайджанское оружие представлено в основном экспонатами XV-XVII веков в силу того, что они лучше сохранились.

Экспонаты представляют собой образцы как оборонительного (шлем, доспех, щит, защита ног, конский доспех), так и наступательного (копье, лук и стрелы, топор, булава, сабля, кинжал) характера.